# Müasir Amerika ədəbiyyatında intihar epidemiyası

**Ləman Qurbanova**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Bakı Dövlət Universiteti*
**E-mail:** leman_qurbanova_2015@mail.ru

**Rəyçilər:** filol.ü.e.d., prof. Ü.İ. Bədəlbəyli,
filol.ü.e.d., prof. C.Q. Nağıyev

**Açar sözlər:** Amerika ədəbiyyatı, intihar, yazıçıların intiharı
**Ключевые слова:** Американская литература, самоубийство, самоубийство писателей
**Key words:** American literature, suicide, suicide of the writers

*Ölüm istəyirəm, dözmürəm artıq,*
*Mən baxa bilmirəm bu puç varlığa.*
**U. Şekspir**

*İncəsənət insanın öz taleyinə qarşı*
*olan ən şiddətli üsyanıdır.*
**Andre Malraux**

Ölümün ruhunu arzulamaq! Hər hansı bir formada bədənin və əqlin işığını söndürərək ölüm qapısının kandarından keçmək! İntihar!

İntihar: "qurban kəsmək" mənasını verən "narh" sözündəndir. Latınca "sui homicido" və ya "sui ipisus homicidum" söz kökündən gələn və bu gün Avropa dillərində işlədilən "suicide" sözünə ilk dəfə U.Şekspirin əsərlərində rast gəlinir. Belə ki, onun əsərlərində əllidən çox intihar edən qəhrəman var (5, 8).

Dünya üzrə hər gün min nəfərdən çox insan intihar edir. Onların çoxlarının nəinki taleyi, heç adları belə ictimaiyyətə məlum olmur. Lakin elə insanlar da var ki, onlar artıq sağlıqlarında dünyanın və tarixin yaddaşında qalacaq işlərin müəllifləri kimi tanınırlar. Buna görə də bu cür məşhur şəxsiyyətlərin intiharı həmişə maraq kəsb edir. Məsələn, Zenon Kitionlu (e.ə. IV-III əsrlər yunan filosofu), Diogen Sinoplu (e.ə. V-VI əsrlər yunan filosofu), Demokrit (e.ə. V-IV əsrlər yunan materialist filosofu), Neron (b.e. I əsr Roma imperatoru), Seneka (b.e. IV əsr Roma filosofu), Petroni (b.e. I əsr Roma yazıçısı), Aqutaqava Rüneske (1892-1927, yapon ədəbiyyatının klassiki), Pol Lafarq (1842-1911, fransız tənqidçisi), Adolf Hitler (1889-1945, faşist Almaniyasının dövlət başçısı), S.Yesenin (1895-1925, rus şairi) və b. (2, 28)

Statistika və ümumiyyətlə, müşahidələr göstərir ki, insanlar əsasən sosial-mənəvi və sosial-maddi səbəblər üzündən intihar edir. Bu səbəblər arasında konkret insan tərəfindən həlli müşkül hesab edilən, əslində isə problematikliyi şişirdilmiş əhəmiyyətsiz məsələlər (məsələn, uğursuz məhəbbət, ailədaxili münaqişə, maddi problemlər, kənardakılar tərəfindən təhqir olunma, yəni şəxsiyyətin alçaldılması və s.) çoxluq təşkil edir.

Bu məsələlərin əhəmiyyətsizliyi onların "insan həyatı" adlanan dəyərlə nisbətdə nəzərdən keçirdiyimizdə müşahidə edilir. İnsanın həyatı bütün dəyərlər sistemində birinci yerdə durduğu üçün heç bir sosial problem insanın intiharına haqlı zəmin yarada bilməz. Bu halda

praktiki həyatla bağlı olan və səhv addım hesab edilən bu cür intiharları şərti olaraq "güzəran intiharı" (şüursuz intihar), ondan yararlanan suisidenti isə "güzəran insanı" adlandırmaq olar. Güzəran intiharından özünün mücərrədliyi ilə seçilən digər intihar modeli öz mahiyyətində ontoloji (varlıq) və essensial (mahiyyət) arqumentləri birləşdirir və bu intiharı şərti olaraq, "fəlsəfi intihar" (şüurlu intihar), ondan yararlanan insanları isə "fəlsəfi insan" və ya "fəlsəfi suisident" adlandırmaq olar (2, 56).

Qısacası, həyatdan hər hansı xırda, əhəmiyyətsiz, dözülə biləcək problemə görə qaçanlardan fərqli olaraq, fərdi-fəlsəfi prinsiplərə görə gedənlərin, yəni şüurlu şəkildə ölüm fəlsəfəsinə baş vuraraq, heçliyi seçənlərin suisidi təqdir olunmasa da, şüursuz şəkildə intihar edənlərin ölümü ilə nisbətdə mənalılıq qazanır və əgər fəlsəfi insan anlayışı müəyyən kateqoriyalara bölünməli olsaydı, o zaman ilk yeri yazıçılar tutardı. Səbəblər müxtəlifdir. Aclıq və ehtiyac, gələcəkdən qorxma, depressiya, yaradıcı krizis, böyük uğur və şöhrət əldə etdikdən sonra yaranan boşluq, xəstəlik, qocalıq...

İntihar sosioloji, psixoloji, bioloji, o cümlədən də, fəlsəfi bir problem olmaqla yanaşı, ədəbi fikrin də nəzərindən qaçmamış, bədii təfəkkür tərzinin formalaşdığı andan, yəni mifoloji düşüncə tərzindən başlayaraq müasir dövrün ədəbiyyatınadək istər Şərq, istərsə də Qərb ədəbi-bədii nümunələrində rast gəlinən bir fenomendir. O cümlədən, intihar haqqında araşdırmalara əsasən, suisident qruplar arasında yazıçılar digər peşə və sənət adamlarına nisbətən on səkkiz dəfə çoxluq təşkil edir və bu baxımdan da diqqəti ən çox cəlb edən ədəbiyyatlardan biri də müasir Amerika ədəbiyyatıdır ki, istər yarandığı dövrdən etibarən özündə suisid ab-havası daşıyan ədəbi-bədii fikri, istərsə də əsərlərində özünəqəsd psixologiyasını əks etdirməklə kifayətlənməyib intihar edən yazıçıları ilə seçilir.

Amerika Birləşmiş Ştatları öz mövcudluğunun ilk dövrlərində analoji problemlərlə qarşılaşmışdır. Hələ ötən əsrin əvvəllərində sənaye kapitalizminin imperializmə keçməsi dövründə, Amerika həyatının mühüm ictimai təbəddülat illərində nəhəng şəhərlərə kobud, sərt və mexaniki görkəm verən zənginlik dilənçilik arasındakı ziddiyyətlər Amerika həyatını da heyrətə gətirmişdi. Cəmiyyətin dibində çabalayan təbəqənin ağır həyat problemləri ədəbiyyatı daim narahat edir, Amerikanın sadə adamlarının hüquqsuzluğu, onların əməyinin kapitalistlər tərəfindən istismar edilməsi, dollar hökmranlığı, hər kəsə, hətta uzaqdakılara belə xoşbəxtlik vəd edən "Amerika arzusu"nun puça çıxması, hökumət idarələrinin maliyyə və sənaye maqnatlarından asılılığı, alçaldılmış və təhqir edilmiş təbəqənin miskin həyat tərzi Amerika mühitində intiharı yaradan başlıca amillər hesab olunur və beləliklə intihar bu amillərin daha da böyüməsi və şişməsi nəticəsində ABŞ ədəbiyyatından cəmiyyətinə, cəmiyyətdən isə ədəbiyyata qarşısıalınmaz bir problem, daha çox infeksiya kimi yayılaraq Amerikanın başı üstündə dayanan daimi burulğana çevrilir (xüsusilə də XX əsrdə), hansı ki, bu burulğan Cek London, Silvia Plat, C.Rendl, Maykl Doris, Kolmen Douel, Nil Kassidi, Harri Kodill, Yeji Kosinski, Harri Krosbi və s. bir çox kimi amerika yazıçı və şairlərini udmuş və hələ də udmaqdadır.

Bildiyimiz kimi Amerika ədəbiyyatının yaranma tarixi çox da uzağa getmir. Belə ki, burada gəlmələrə qədər yerlilərin, yəni hindli tayfaların mifoloji fikrini özündə daşıyan bir ədəbi-bədii fikir, axın olmuşdur. Lakin köklü şəkildə ciddi bir ədəbi mühitin formalaşması prosesi gəlmələrlə, yəni ingilisdillilərin bu torpaqlara gəlişi ilə bağlıdır. Beləliklə, XVII əsr Amerikada ingilisdilli ədəbiyyatın yaranışı dövrü olmaqla sonralar bütün dünyaya gücü və nüfuzu ilə səs salacaq Amerika ədəbiyyatının başlanğıcı dövrü hesab olunur. Yarandığı dövrdən etibarən gərgin bir mühitin içində yetişməkdə olan Amerika ədəbiyyatı miskin insanlarının taleyini, xəyal qırıqlığını, ölmək və özünəqəsd istəyini XVIII-XIX əsrlərə də

daşımaqdan çəkinmir. Bu aralıq dövrdə Amerika ədəbiyyatında intihar problemi özünü göstərsə də, lakin bunu sadəcə başlanğıc idi. Çünki epidemiyanın ən böyük dalğası məhz XX əsrdə gözlənilirdi.

Amerika sosioloqu, Çikaqo və digər universitetlərin professoru olmuş, iyirminci əsrin əvvəllərindən ta 1929-cu ilədək Amerika cəmiyyətində mənəvi deqredasiya, özgələşmə və yadlaşma problemlərinə dərindən bələd olmuş Veblen Torsteyn bütün əsərlərini tarixi mənbələrin öyrənilməsi yolu ilə XX əsr Amerika mühitindəki sosial hadisələrin köklərinin təhlilinə həsr etmişdir. Veblenin konsepsiyasına görə, bəşər sivilizasiyasının tarixi müxtəlif dövrlərdə cəmiyyət tərəfindən qəbul olunmuş davranış və vərdiş düşüncələrini əks etdirən müxtəlif sosial institutların bir-birlərini əvəz etməsidir. Birinci dövr və ya mərhələ ibtidai cəmiyyət, ikinci mərhələ barbarlıq dövrü, yəni qəsbkarlıq və qarət, daha dəqiq desək, zorakılıq dövrüdür. Nəhayət, üçüncü dövr pul dövrüdür. Daha doğrusu, əmtəə, pul münasibətləri dövrüdür.

Əslində isə, burada da zorakılıq hökm sürür. Yuxarılar aşağıları istismar edir, cəmiyyətdə kəskin mənəvi aşınmalar baş verir. Birinci dövrdə sosial münasibətlər təzəcə yaranırdı, əsasən instinktlər vasitəsi ilə idarə olunurdu. Bu instinktlərin özləri də valideyn instinktlərinə, sənət instinktlərinə, maraq instinktlərinə bölünürdü və bu instinktlərin sonrakı dövrlər üçün də həlledici rolu vardı.

İyirminci əsrin ilk otuz ilini xarakterizə edən digər Amerika yazıçıları kimi Veblen də bu dövrü pul rəqabəti dövrü adlandırırdı və cəmiyyət üzvlərinin mühitə uyğunlaşması və həyat uğrunda mübarizəyə qoşulması mərhələsi kimi qiymətləndirirdi (3, 139). Məhz o səbəbdəndir ki, Veblenin də bir çox əsərlərində qeyd etdiyi kimi, XX əsr Amerika tarixində mənəvi deqredasiya, özgələşmə və yadlaşma problemlərinin cərəyan etdiyi bir dövr olmaqla yanaşı, intihar ab-havasının da istər həyatda, istərsə də ədəbiyyatda qabardığı bir dönəm olmuşdur. Belə ki, Cek London (1876-1916), Ernest Heminquey (1899-1961), Harri Kodill (1922-1990), Maykl Doris (1945-1997), Yeji Kosinski (1933-1991), Rendl C. (1914-1965), Harri Krosbi (1898-1929), Nil Kassidi (1926-1968) və s. kimi bir çox amerikan yazıçı və şairləri XX əsrdə Amerikada vəbadan da sürətlə yayılan intihar epidemiyasının qurbanlarındandır.

Amerika ədəbiyyatı tarixində istər yaradıcılığı, istərsə də ölümü ilə əbədi iz buraxan dünyaca məşhur yazıçılardan biri də Cek Londondur. XX əsr ədəbiyyatının yetirdiyi ən böyük realist yazıçılardan olan Cek London insan övladının hansı iztirablara dözə bildiyi şücaəti, insanın mübarizə üçün yaşadığını təbliğ edən dəyərli əsərlərin müəllifidir. O, özünün məşhur "Dəmir daban", "Martin İden" romanları və eləcə də şimal hekayələri ilə dünya oxucusunun rəğbətini qazanmışdır. Belə ki, istər romanları, istərsə də hekayələri daxil olmaqla yazıçının bütün yaradıcılığı onun özünün keçdiyi çətinliklərdən, həyat yolundan qaynaqlanan nihilizm və bu nihilizmin yaranışına səbəb olan realizmin qarışığı fonunda yazılmışdır və bu əsərlərin hər birində az və ya çox olmaqla peşmanlıq, xəyanət və ölüm əks olunmuşdur.

Maraqlıdır ki, on altı illik yaradıcılıq dövrü olan bu yazıçı bəzi ehtimallara əsasən yaratdığı məşhur obrazı Martin İden kimi intihar etmişdir. Kaliforniyaya qayıdan yazıçı 1916-cı ilin noyabrın 22-də qəflətən vəfat edir. Məlum olur ki, çoxlu yuxu dərmanı içdiyinə görə ölmüşdür. Bunu qəsdənmi etmişdir, yoxsa təsadüfənmi olmuşdur, bu barədə dəqiq fikir yoxdur (6, 215). Oxunduğu zaman bütün oxucularına təəssüf və dərin kədər hissi yaşadan "Martin İden" romanı yazıçının ən qüvvətli əsəri hesab olunur. Cek Londonun 1909-cu ildə qələmə aldığı bu romanda XX əsr Amerika mühitinin ruhuna uyğun olaraq Martin İdenin timsalında sənətkarın burjua cəmiyyəti ilə mübarizəsi verilmişdir (6, 212). Martin İden adi matrosdur. Uşaqlıqdan ehtiyac içərisində böyümüş bir gəncdir. Özünü və ailəsini saxlamaq

üçün balacalıqdan hər cür zəhmətə qatlanmışdır. Martin eyni zamanda da faciəvi şəxsiyyətdir. O, yoxsullara məxsus bir insandır, lakin sonradan mənsub olduğu sinifdən ayrılır, yüksək cəmiyyətə qarışmağa çalışır və həmin cəmiyyətə yol tapır. Lakin axtardığı ideal aləmi onu meşşanlığa sürükləyən Mister Morz, onun qızı Ruf və başqalarında tapa bilmir. Bu səbəbdən də o, yenidən yoxsulların yanına qayıdır, lakin o burada da yaşaya bilmir. Beləliklə, Martin onu haqlayan mənəvi böhranı ilə baş-başa qalır və sonunda yeganə çıxış yolunu intiharda tapır.

Cek Londonun "Min düjün" adlı hekayəsində qısa müddətdə varlanmaq eşqinə düşmüş Rasmunsenin soyuq iqlimli şimala on iki min (min düjün) yumurta aparıb satmaq süjeti işıqlandırılır. Tamahının onu səslədiyi yola üz tutan Rasmunsen qızılaxtaranların şəhərinə çatdığı zaman özünü dünyanın ən zəngin və ən xoşbəxt insanı, min düjün yumurtanın hesabına varlanacaq olan "biznesmen" kimi hiss edir. Lakin tale onunla çox ağır zarafat edir, belə ki, yumurtaların lax və iylənmiş olması ilə bütün həyatı boyu çətinliklər, iztirablar, əziyyət içində olmuş Rasmunsenin varlanmaq, zülmdən qurtulmaq xəyalı bir anın içində yox olmuşdur. Müəllifin mənəvi-ruhi, istərsə də psixoloji deqredasiyasını, çöküşünü əks etdirən bu əsərində də obraza, yəni Rasmunsenə intihar etmək fikrinə gəlməsi üçün çox vaxt lazım olmur (2, 25).

Müasir Amerika ədəbiyyatı bir okeandırsa, intihar onun ən böyük dalğasıdır və təəssüf ki, bu dalğanın haqladığı qəhrəmanlar sırasında E.Hemenqueyn adı ön sıralarda çəkilir. "Mən həmişə hesab etmişəm ki, həyat sonluğu əvvəlcədən müəyyən edilmiş faciədir", deyən Hemenqueyn psixi xəstəlikdən intihara adlayan qəribə bir həyat hekayəsi var. Qeyd edək ki, 1960-cı ildə "Sonuncu yay" əsərinin əlyazması üzərində işlədiyi zaman artıq görmə qabiliyyətini itirməyə başlayan yazıçını son dərəcə pozulmuş əsəbləri ilə bərabər, qorxu da rahat buraxmır.

Hətta özü də etiraf edir ki, güclü yorğunluq və əsəb gərginliyindən sonra dağılmaya məruz qalmaqdan qorxur. Hətta o, ətrafındakıları inandırmağa çalışır ki, Bill Devis adlı biri onu öldürmək istəyir və izləyir. Narahatlıq və sarsıntı keçirən Hemenqueyn iki dəfə özünü öldürmək istədikdə tuturlar və xəstəxanaya yerləşdirirlər. Bu yazıçının həyatı ilə bağlı bir fakt da maraqlıdır: Hemenqueyin atası da intihar etmişdi və o, qeydlərində bu barədə yazırdı: "Atamın intiharı uzun illər məni düşündürürdü. Başa düşürəm ki, onu mühakimə etməməliyəm, əksinə başa düşməyə çalışmalıyam." (1,140)

Hər an atasını xatırlayan və xatırladan Hemenqueyn xəstəxanadan qayıtdığı günün səhəri - 1961-ci il, iyulun 2-də, hamını yatmış halda qoyub silahların saxlandığı yerə keçir-elə buradaca silahı başına tutub, tətiyi çəkir. Həmin silah isə özünü öldürən atanın oğluna bağışladığı silah idi...

Bu qəbildən olan epidemik intihar silsiləsinə daxil olan suisidentlərdən biri də dünya ədəbiyyatında kifayət qədər tanınmış imzalardan biri olan Silvia Platdır. Amerikalı, alman-yəhudi mənşəli olan bu yazıçının adı tarixə yaradıcılığı ilə deyil, üç dəfə intihar cəhdi ilə düşüb. Qeyd edək ki, Silvia Plat XX əsr Amerika poeziyasının ən qəribə ən qalmaqallı fiqurlarından biri olub. O, 1932-ci ildə Bostonda, Massaçüsetsdə dünyaya gəlib. Bu dövrü "Böyük Amerika depressiyası dövrü" də adlandırırlar. Bəlkə də bu, onun faciəli həyatını müəyyənləşdirən amillərdən biri olub.

Silvia Plat depressiv psixoz diaqnozu ilə xəstəxanada uzun müddət yatıb. "Ölməyi bacarmaq-bu əsl incəsənətdir" sözlərinin məxsus olduğu Silvia Plat haqqında bir çox bioqrafik araşdırmaların müəllifi olan Cin Quld yazır: "O, poetik istedada malik bir İblis idi? Yoxsa İblisin özünə məhkum etdiyi, qəddar ruhun hakim kəsildiyi bir vücud-bir dahi?

Bilmirəm. Sanki onun hərəkətlərini içində oturan İblis idarə edirdi" (1, 84).

İntihar etmiş amerikalı yazıçılar sırasında silahla özünü vuraraq həyatına son qoyan yazıçı Harri Kodil (1922-1990), dərman içsə də uğursuz nəticələnəcək bir intihar cəhdi qorxusu ilə başına torba keçirərək ölən Yeji Kosinski (1933-1991), özünü pəncərədən atan yumoristik yazıçı Koulmen Douel (1925-1985), ilk cəhdi uğursuz alınsa da ikinci cəhdində başına plastik paket geyinərək öz suisidini gerçəkləşdirən yazıçı Maykl Doris (1945-1997), hepatit xəstəliyindən əziyyət çəkən və yeganə qurtuluş yolunu intiharda görərək özünü maşın altına atan Rendl Cerl və daha b. da var.

Qeyd edək ki, XX əsrdən gələn intihar ab-havası XXI əsrdə də Amerika ədəbiyyatında, istər müəlliflərin yaradıcılığında, istərsə də həyatında özünü göstərməkdədir.

**Məqalənin aktuallığı.** Məqalədə ən qədim dövrlərdən müasir dövrədək aktual olan, istər fəlsəfi, istər sosioloji, istərsə də ədəbi fenomen olan intihar problemi müasir Amerika ədəbiyyatı kontekstində araşdırılmışdır.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə müasir Amerika ədəbiyyatında epidemik hal alan intihar problemi sistemli şəkildə nəzərdən keçirilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, eləcə də tələbələr istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Cabbarlı N. Ədəbiyyatdan intihara. Bakı: "VEKTOR" nəşrlər evi, 2006. Hüseynov A. İntihar (Suisid). Bakı: Adiloğlu, 2001.
2. Г.Чхартишвили. Писатель и самоубийство. М.: Новое литературное обозрение, 2000.
3. London C. Martin İden. Bakı: Şərq-Qərb, 2009.
4. Özünəqəsdin sosial-psixoloji amilləri. Bakı: Elm və təhsil, 2013.
5. Ş.İsmayıl. XX əsr xarici ədəbiyyat tarixi. Bakı: Maarif, 1974.

**L. Gurbanova**

## The epidemic of the suicide in contemporary American literature

## Summary

More than a thousand people commit suicide every day across the globe and those who commit suicide are a lot of creative people, especially writers, for example, Jack London, S. Yesenin, Yukio Mishima, Marina Svetaeva, one of the most recognizable figures in Russian literature, the swiss poet Karin Boye, English writer Virginia Wulff, who chooses a very different suicide method, Silvia Plat, one of the most scandalous and most strange figures of the 20th century american poetry, E.Hemingway, Stevan Sveyq, Mayakovsky, Michael Doris, Harry Kodil, Nil Cassidy and others. So, if we look at the suicide writers, modern American literature draws our attention from this point of view. Especially in the 20th century American literature is quite interesting in this regard. Of course, one of the main reasons for the 20th century American writers to be more prone to suicide was the environment, moral degradation, and the process of alienation.

**Л. Гурбанова**

## Эпидемия самоубийств в современной американской литературе

## Резюме

Более тысячи человек ежедневно совершают самоубийства по всему миру, и те, кто совершают самоубийство — это много творческих людей, особенно писателей, например, Джек Лондон, С. Есенин, Юкио Мисима, Марина Светаева, одна из самых узнаваемых фигур в русской литературе, швейцарский поэт Карин Бойе, английская писательница Вирджиния Вульф, одна из самых скандальных и самых странных фигур американской поэзии 20-го века Сильвия Плат, Э.Хемингуэй, Джек Лондон, Стеван Свейк, Маяковский, Майкл Дорис, Гарри Кодил, Нил Кассиди и другие. Итак, если мы посмотрим на авторов-самоубийц, современная американская литература привлекает наше внимание с этой точки зрения. Особенно в американской литературе 20-го века довольно интересно в этом отношении. Конечно, одной из главных причин того, что американские писатели 20-го века были более склонны к самоубийству, была окружающая среда, моральная деградация и процесс отчуждения.

**Redaksiyaya daxil olub:** 06.05.2019